Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

**Azərbaycanın müxtəlif regionlarının inkişaf etdirilməsi dövlətin əsas prioritetlərindəndir. Azad ərazilərin sosial-iqtisadi inkişafının təmin edilməsi nəticəsində bölgənin mənzərəsinin dəyişilməsinə nail olacağıq. Dövlət və cəmiyyət olaraq hamımız vahid bir məqsədə qulluq edirik, ərazilərimizi dirçəltmək əsas amalımızdır ki, hazırda bu istiqamətdə ciddi işlər aparılır.**

# Qarabağ turizmi - bölgələrin sosial-iqtisadi inkişaf mənbələrindən biri...

Qarabağın sosial-iqtisadi inkişafında, hec şübhəsiz ki, turizmin böyük rolu olacaq. Təbiət turizminin, ekoturizmin inkişaf etdirilməsi çox fayda verəcək.




Qarabağda təbiət turizminin inkişaf etdirilməsi üçün kifayət qədər potensial var və təbiət abidələrinin turizm seqmenti kimi turizm marşurutlarına salınması vacibdir. Nəzərə alsaq ki, ermənilər 30 ildə Qarabağda təbiət turizmindən milyardlarla vəsait qazanırdı. Bu mənada düşməndən azad edilən ərazilərdə turizmin inkişaf etdirilməsi bir zərurətə çevrilib.

### Qarabağda təbiət turizminin inkişafı üçün QHT-lər tərəfindən təkliflər hazırlanıb...

"Davamlı Turizmin İnkişafına Dəstək" İctimai Birliyinin sədri Nərminə Qəribova bildirib ki, Qarabağda turizmin inkişafı üçün kifayət qədər potensial var. İşğaldan azad edilən ərazilərdə təbiət turizminin inkişafı üçün QHT-lər tərəfindən səmərəli təkliflər hazırlanıb.

Birlik sədri qeyd edib ki, işğaldan azad olunan torpaqların çox böyük turizm potensialı var:

"Bu torpaqların təkcə tarixi abidələri deyil, elə təbiəti də kifayət edir ki, turizm potensialını inkişaf etdirmək mümkün olsun. Mən inanıram ki, bu istiqamətdə atılacaq addımlar Qarabağ regionunda digər sahələrin də inkişafına təkan vermiş olacaq. İşğal altında olduğu müddətdə ermənilərin Azərbaycan flora və faunasına vurduğu ziyan milyardlarla dollar dəyərində ölçülür".

N.Qəribova vurğulayıb ki, Qarabağda onlarla bitki növləri var ki, onlar dünyanın bir çox ölkələrində bitmir:

"Qırmızı çinar", "Ardıc" ağaclarının bir neçə növünü misal gətirə bilərik ki, ermənilər onları ya tamamilə məhv ediblər, ya da artıq nəsli tükənmək üzrədir. Qarabağ regionunda həmin növlərin geniş təbliğ edilməsi vacibdir".

### Təbiət turizmini inkisaf etdirmək üçün bizə nə lazımdı?

Ekspertlər hesab edir ki, Azərbaycanın bütün bölgələrində təbiət turizminin, ekoturizmin inkişaf etdirilməsinə ciddi ehtiyac var. Xüsusən də, böyük turizm potensialı olan Qarabağda bu istiqamətdə böyük işlər görülməlidir. Ekspertlər deyirlər ki, hələlik ərazilər tam olaraq minalardan təmizlənməyib və minalardan təmizlənmə əməliyyatları davam etdirilir. Ekspertlərin fikrincə, ekoturizmin bir çox sahələrinin olması onu sübut edir ki, turizm fəaliyyətinin bu istiqaməti hələ də formalaşma mərhələsindədir. Tərif yalnız o zaman tam və dolğun olar ki, orada ekoloji turizmin əsaslandığı prinsiplər gözlənilsin. Ekoloji turizmin əsaslandığı və bünövrəsi hesab olunan prinsiplər bunlardır.

Təbii rekreasiya ərazilərinin bioloji müxtəlifliyinin qorunması, ekoturizm sahəsinə cəlb olunmuş regionların iqtisadi dayanıqlıq səviyyəsinin artırılması, ekoturist fəaliyyəti iştirakçılarının ekoloji mədəniyyətinin yüksəldilməsi, rekreasiya ərazilərinin etnoqrafik statusunun saxlanılması və sair dediklərimizə daxildir.

### "Qarabağın turizm imkanları çox genişdi"

"Millenium Konqres" turizm şirkətinin rəhbəri, turizm eksperti Ruslan Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, Qarabağın turizm potensialını dəyərləndirmək və bu istiqamətdə işlər görmək mütləqdir. "Qarabağın turizm imkanları çox genişdir. Deyərdim ki, burada bütün turizm növlərinin bərpa və inkişaf etdirilməsi üçün çox böyük şərait var.

İstər sağlamlıq turizmi, istər işgüzar turizm olsun, istərsə də digər turizm növləri olsun, hamının inkişafı vacibdir.

Əlbəttə ki, Qarabağın təbiət abidələri ilə zənginliyi təbiət turizminin, ekoturizmin inkişaf etdirilməsinə böyük töhfə verə bilər. Nəzərə alsaq ki, loqqistika dəhlizlərinin, hava limanlarının açılması tranzit turistlər, eyni zamanda qonşu ölkələrdən və digər dövlətlərdən olan turistlər üçün imkanlar açır.

Bilirsiz ki, 30 illik işğal dövründə ermənilər Qarabağa qanunsuz turist səfərləri təşkil ediblər və hər zaman təxribatla məşğul olublar. Ancaq düşünürük ki, bu gün "Turizm haqqında" qanunun qüvvəyə minməsi, eyni zamanda davamlı inkişaf strategiyasının hazırlanması, orada tikinti - quruculuq, bərpa işlərinin, həmçinin də infrastruktur layihələrinin həyata keçirilməsi turizmin inkişafına böyük təkan verəcək.

Orada turizmin bütün sahələrinin, o cümlədən də kənd turizmi, ekoturizm, dağçılıq və sair turizm növlərinin inkişafına şərait yaradacaq" - deyə R.Quliyev bildirdi.

Ekspertlərin də dediyi kimi Qarabağda təbiət turizminin inkişaf etdirilməsi üçün təbii resurslar, abidələr, erməni vandalizmindən canini möcüzə nəticəsində qurtaran ağaclar, başqa təbiət abidələri var. Onların həm dünyaya tanıdılması, həm də turizm subyektləri kimi iqtisadiyyatlmıza böyük təkan verən sahə kimi inkişaf etdirilməsi zəruridir.

Sonda qeyd etmək lazımdır ki, bu gün Qarabağda kompleks tədbirlər planı icra olunur. Məqsəd azad olunmuş torpaqlarımızın tezliklə bərpa edilməsi, insanların doğma yurdlarına qayıtması və bu torpaqlarda həyatın canlanmasıdır. Gecə-gündüz dayanmadan həyata keçirilən fəaliyyət də deməyə imkan verir ki, yaxın vaxtlarda biz bu proseslərin reallaşmasına şahid olacağıq.

***İradə SARİYEVA***

**Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**